26 rəcəb 1332 Doqquzuncu il 8 июня 1914 г.

# ملا نصرالدين

№19 Qiymәti 12 qәpik. МОЛЛА НАСРЕДДИНЪ Цена 12 k. №19



*Başları çırtılmıyanlar və həcəmət aldırmıyanlar kənar olsunlar.*

Litoq. S.Bıxova.



**Adres:** *Tiflis, Davidov küçəsi nömrə 24.*
**Адресь:** *Тифлись, Давидовская, 24.*
**Teleqram üçün:** *Tiflis, "Molla Nəsrəddin".*
**Для телеграмм:** *Тифлись, "Молла Насреддинь".*
***Подписная цена:***
***На годь - 6 руб.***
***6 месяц - 3 р. 50 к.***
***3 месяц - 2 р.***
***1 месяц - 40 к.***
Adres dəyişmək haqqı 3 dənə 7 qəpiklik markadır.

**Qafqazda və Rusiyada**
**12 aylığı - 6 manat**

"-----------------------" 6 aylığı - 3 manat yarım
"-----------------------" 3 aylığı - 2 manat
"-----------------------" 1 aylığı - 40 qəpik
*Əcnəbi məmləkətlərdə 12 aylığı - 7 manat*
"-----------------------" 6 aylığı - 4 manat

***Tək nüxsəsi idarəmizdə 10 qəpik, özgə şəhərlərdə 12 qəpik.***

## YAPONLAR

Oxucularımıza məlumdur ki, yapon milləti bir neçə il bundan irəli bu fikrə düşmüşdülər ki, müsəlman dinini qəbul eləsin və bu da məlumdur ki, Molla Əbdürrəşid İbrahimov getmişdi Yapona ki, yaponlara islam dinini tərif eləsin və bir neçə ildir ki, yaponlar fikirləşirdilər ki, islamı qəbul eləsinlər, ya eləməsinlər.

İndi eşidirik ki, Yaponiyanın baş vəziri cənab Niqoqağa Əbdürrəşid İbrahimova bu məzmunda kağız yazıb: vəzir yazır ki, biz hazırıq islamı qəbul edək, amma bir şey qabağımızı kəsir. Cəmi millətlərin içində adət budur ki, kişilər evlənmək istəyəndə qız alırlar, amma eşidirik ki, müsəlman içində hər nə qədər məşədi var, hamısı evlənmək istəyəndə qız əvəzinə oğlan alırlar. Necə ki, Bakıda mart ayının 16-da bir molla müdərris məktəb şagirdlərinin birisini istəyirmiş özünə övrət eləsin. Hərçənd bunun bir o qədər eybi yoxdur, amma biz yaponlara politika mülahizəsincə çox zərəri var, çünki bizim millətimiz onsuz da azdır, qeyri hökumətlər qabağında durmağa bizə çox qoşun lazımdır. Əgər sizin adəti qəbul eləsək millətimiz getdikcə azalar. Amma gözünə döndüyüm Əbdürrəşid İbrahimov gör nə gözəl cavab verib. İbrahimov vəzirə yazıb ki, heç ürəyinizi sıxmayın, bizlərdə oğlan uşaqları almağın qabağında dörd arvad almaq da qoyulub ki, bu da heç bir millətdə yoxdur və əgər siğeyi-mutə eləmək istəsən, iki yüz arvad ala bilərsən.

Belə rəvayət eyləyirlər ki, Molla Əbdürrəşidin həmin cavabı Yaponiya vəzirini islama tərəf nəhayət həvəsləndirib, genə yaşasın islamın qeydinə qalan qeyrətli mollalarımız. Min yaşasın.

*İmza: Çırtapırt*

## TELEQRAF XƏBƏRLƏRİ

Salyan - Salyanda təzə açılan progimnaziyanın mənfəətinə Bakıdan gəlmə operetta artistləri Zülxar bəyin "Əlli min yaşında heyvan" operettasını mövqeyi-tamaşaya qoydular. On səkkiz min manat cəm oldu.

Salyan - Salyanın məşhur fədaisi Molla Fırıldaq may ayının 25-də bazar başında progimnaziya barəsində bir öylə atəşin nitq söylədi ki, camaat həmin saat tiryaka sərf etdiyi pullarını bir gün tiryaka verməyib progimnaziyanın mənfəətinə verdilər. Bir gündə beş min on səkkiz manat pul cəm oldu. Yaşasın fədai Molla Fırıldaq.

Həmədan - Əsil rus rəiyyətlər ilə bədəl rus rəiyyətlərinin tacirbaşı seçmək xüsusunda ümumi iclasları oldu. İclas çox qiylü qal ilə keçdiyinə görə camaat məsləhət gördülər Təbrizə teleqraf edib Təbrizin teatr işlərində böyük xidmətlər göstərmiş və təzə tacirbaşının qardaşı olmaqla şərəfyab olan Ağayi-Mənsurüddövləni Həmədana çağırsınlar. Çünki bu cənabın böyük himməti və iş bilməsi hamıya məlumdur. Camaat arasında asayiş bərqərardır.

Təbriz - İndiyə kimi üççə dəfə vərşikəstə düşmüş və hər dəfə vərşikəstə düşəndən Hacı Mirzə Həsən ağanın evində bəstə oturan Hacı İsmayıl müdiri-tüccarın ticarət məhkəməsinə rəis olmasını camaat alqışlar arasında bayram elədilər.

Təbriz - İslamiyyə vaxtından bir sərrafa iyirmi beş min tümən borclu qalmış Hacı Mirzə Həsən müctəhid mülklərini oğlanlarının adına çevirib vərşikəstəlik elan elədi. Şayi ata görə müctəhid Ağa Qədim öz himayəti altında olan və indi ticarət məhkəməsi rəisi müdiri-tüccarın evinə bəstə girməyə hazırlaşır. Müdiri-tüccarın evində plov qazanları asılır.

Təbriz - Dünən genə dörd nəfər "Molla Nəsrəddin" jurnalı oxumaq ilə müttəhim olanların qulaqlarını divara mıxladılar.

Mazandaran - Burada intixab olunmuş beş nəfər vəkilin Tehrana getmək xərci iki yüz qırx tümən pulu şahzadə Rüknüddövlə öz cibindən verdi. Bunun əvəzində and içibdir ki, irticapərəstlərə bir aya kimi daha pul verməyəcək. Ac və səfil qalan irticapərəstlər arasında böyük həyəcan gözlənilir.

## SƏLAMƏTÜL-İNSAN Fİ HİFZÜL-LİSAN

A Molla əmi!.. Canım, gözüm, ömrüm!.. Sən özün bir yekə molla kişisən, başında bəyaz kətan əmmamə kuhi-Qaf kimi... üç çərək qırmızı hənalı saqqalın, əba, qəba, çubdəst, nəleyin hamı təfsilə hacət yoxdur, sənə nə layiq bu cür üçqulaq, damdandüşmə sözləri yazıb arı yuvasına çöp uzadırsan?.. Genə bu iki sarılı yumurta nədir ki, 18-ci nömrədə yazmısan?.. Qəsbi eləmək, Ömər rəziullah, Əli Əleyhüssəlamın təbərini oğurlayıb, nə bilim dərcayi-səxt bövl kərdən cayiz nist... Xub, çox yaxşı tutaq ki, bu fərmayişləriniz haqdır və kitablarda yazılıbdır. Bəs bu necə iftiradır ki, xırım-xırda xəbərlərin axırında yazırsan ki, Molla İsmayıldan da iltimas eləmişəm ki, müsəlman cənazəsini qəbristanda qoyub mərsiyə oxuyanda evində dua eləsin. Bu isə o cənabın haqqında sırf böhtandır. Zira üç ildən ziyadədir ki, qəbristan üzü görməyib məscidin köhnə hücrələrini dükanının üstünə zontik qayıtdırır, başı elə məşğuldur ki, bir nəfər iranlı vəfat eləmişdi, səhər saat doqquzdan axşam saat dördə qədər cənazə qəbristanda qalıb, gəlib namazın qılmadı. Axırda qüssal Məhəmməd Hüseyn namazın qılıb basırdılar. Sabahısı günü onu hədələmişdi ki, sən nə üçün mənim yerimi qəsb elədin? Ha indi Molla əmi sən də oldun mənə bura gələn yalançı osmanlı konsulu Helmi bəy ki, hilal əhmər adına hər bilet sahibindən üç manat ianə pulu alırdı. Xırda hökumət onun saxta haqqı fırıldaqçı olduğunu duyub həbsə aldı. Genə həman nömrədə Kərbəlayə gedənin əksini çəkibsən, - o da haqdır. Lakin gərək indi mülahizə edək ki, burada danişmənd, tacir, şagirdlər var acığına gəlir... odur ki, bir nəfəri həmin əksə baxıb ağzını açıb gözünü yumub... deyirdi. Qərəz Molla əmi özün heç, amma bizlərə yazığın gəlsin. Pul verib jurnal alıb oxuyuruq hər kəs görəndə əlimizdə səni babı, bizi kafir adlandırır. A hərif hamıdan qabaq qəzetə gələn kimi Bəhlul qəbristanı kəsən kimi kəsir dükanın qabağını ki, verin oxuyaq... Mən buranı yaxşı bilirəm ki, əgər Allah təaladan bizlərə bəla gəlməsə... amma Molla İsmayıl bizə nagəhan bəladır... Lakin mənim bu fövqimdə ərz olunan vəsiyyətlərimi can dil ilə qəbul edib bir para duzsuz, dadsız sözləri yazıb camaat arasına təfriqə salma, yoxsa... eşidib qalan-qulan abrunu da aparar. Çox füzulluq oldu bağışlayın.

*Sizin müvəqqəti və miyanə rəfiqiniz*
*BALANURU*




*Xan, mən istəyirəm görəm nə tövr adam döyürsünüz?*
*Ханъ я хочу видеть, какъ вы бьете людей…*



*Küçədən iki nəfər fəqir tutub gətirdilər.*
*На улице поймали двухъ бедняковъ.*



*...və başladılar döyməyə.*
*и стали пороть.*




*- Məşədi, günlər qəribə uzanıb, yaxşı fəhlə işlətməlidir.*
*- Bəli, yayda fəhlə işlədəsən, payızda oruc tutasan.*




*Canım bu pravilyayeş bizim evimizi yıxdı, hamı əsnaflar burdadı, söz verin onu biryollux çıxardaq.*



***Ağalar, dörd ildi bangın bacardıqca pişrəftinə çalışıb və tərəqqisinə səbəb olmuşam, indi xahiş eləyirəm icazə verəsiniz mən qulluqdan kənar olam.***
***Camaat - Yox, yox, aman günüdür, bizi başıaçıq qoyub getmə. Xahiş eləyirik qalasan və sənin məvacibini də beş yüz manat artırırıq.***

## TEHRANDAN BİZƏ YAZIRLAR

Çoxdandı ağayi-Qəvamüddövlə Tehran vəkili olmaqdan ötrü üç min tümən məxaric qoyub bəs niyə vəkil çıxmadı!

*Cavab*

Biz bildiyimiz yəqin o cənab həman üç min tümənin zəkatını Tehranda divarlar dibində sərgərdan qalan mollalara vermiyib ona görə o pulların təsiri olmayıbdır və məsələ təhtişşüaə düşübdür. Çarası ancaq ikinci dəfə bir üç min tümən də çıxardıb, üç dəfə imamzada Zeydin başına dolandırsın və paylasın, bəlkə Allah qoysa və alına yazılmış olsa vəkil olar.

Bir də bu məsələni bizə yazan cənab Tehranda genə vəkil olmaq barəsində çoxlu məxaric eyliyən Xoy imamcüməsindən soruşsaydı daha yaxşı olardı, çünki o möhtrəm vücudun bu bərələrdə təcrübəsi çox artıqdır.

## FELYETON SƏYAHƏTNAMƏ

Təbriz kağızları

*(Başı 15-ci nömrədə)*

Mir Tağı Həriri mən görəndə mötəbər tacirlərdən idi. O zamanlar Allah cəmi ölənlərə rəhmət eləsin, tacir tayfasının İranda, xüsusən Təbrizdə böyük hörməti var idi. Hətta Hacı Mirzə Cavad ağa müctəhidin bərəkətindən hökumətlən baş-başa vurardılar. Ağa Mir Tağının sorağına düşüb "Xərəzilər" timçəsinə tərəf getməyə başladım. Bazara yetişəndə gördüm ki, vurhavur, qoymahaqoymadır ki, vurçatdasın dünyanı götürüb, kor gözündən qorxar, keçəl də başından - mən də qorxuya düşdüm ki, görəsiz nə var hadiyi-ittifaq düşüb ki, camaat bir-birinə dəyib. Yaxına gedib soruşdum məlum oldu ki, bir nəfər adam bilməyə-bilməyə birdən bir intixab sözü danışıb, həzrəti-əşrəfin hökmü ilə ağzını tikib küçələri dolandırırlar. Camaat da ona tamaşa eləməkdən ötrü dükan bazarı bağlayırlar, çün mənim başım kələkdə idi və vaxtım yox idi tamaşaya gedə bilmədim, müxtəsər Mir Tağı qədim mən gördüyüm vaxt olduğu yerə gedib soruşdum, dedilər ki, ağa indi burada olmayır. Dükanın xəbər aldım dedilər ki, ağa vərşikəstə düşüb sonra əyan olub? Dedilər: Qardaş! Sən çox xam adamsan və görünür ki, Təbrizə təzə gəlmisən? İqrar elədim ki, təzə gəlmişəm və xahiş elədim ki, başa salsınlar görək necə əyan olmaq olar. Mən təəccüblə soruşdum ki, mən bildiyimə görə əyan olmaq çətin işlərdəndir, bəs ağa necə, əyan olub? Dedilər ki, bu cür əyan olmaq olar: əgər seyidsən bir az əmmaməni kiçildərsən, şalı belindən açarsan, donu çıxardıb jilet geyərsən, saqqalı yüngüllədərsən, başını maşın ilə vurdurarsan, danışanda məşrutəni söyərsən, məşrutəçilərə lənət oxursan və söhbətinin arasına həmişə etimaüddövlə məni belə çağırmışdı, həzrət əşrəf belə fərmayiş elədi, həzrət infiranon Fitilbörk və bu cür qəliz sözlərdən qatarsan olarsan əyan, daha bunun çətinliyi haradadır?..

Bu sözləri eşidəndə mən də "Molla Nəsrəddin" idarəsini böyüklətmək fikri eyləyən əyan olmaq fikrinə düşdüm. Amma çünki mən seyid deyildim ona görə saya adamın əyan olmağının yolunu soruşdum. Dedilər: Allaha şükür Təbrizdə nə çoxdu mehmanxana, bir fayton tap, amma belə elə ki, hamı bilsin ki, fayton sənin özünündür, min faytona ver özünü mehmanxanaların birinə və faytonu qapının qabağında saxlat. Mehmanxanada bir az araqdan, zaddan içərsən damaq üstünə gələndə çıxarsan eşiyə, düşərsən "Ekonomiya" mağazasının qabağına bir az gicələ-gicələ gəzərsən, fayton da dalınca gələr. Əgər bəxtin gətirsə nəzmiyyələrdən birinə rast gələrsən, səni döyə-döyə aparарlar bəylərbəyi evinə, orada bir iki yüz ağac yeyərsən və iki yüz tümən cərimə verib icazənamə alıb çıxarsan, onda daha sənin əyanlığına heç İmam Cümənin də sözü ola bilməz.

*(Sonrası var)*

*Sərgərdan*

## İDARƏYƏ GƏLƏN KAĞIZLAR

Bakıdan - Möhtərəm Molla əmi! Sizin 17-ci nömrə jurnalınızda etdiyiniz suala ki: Təzəpir məscidinin həyətindən keçirdim gördüm ki, üç nəfər övrət tabutu zor ilə qalxızıb dayadılar divara və sonra arvadın biri üç dəfə tabutun altından keçib və bir az dayanıb nə oxudusa genə tabutu öpüb və yerə uzadıb çıxıb getdi. Bəndənin cavabı belədir: "Naxçıvan müctəhidinin təzə cəm etmiş Cameiddəvatın 13-cü səhifəsində belə yazılıbdır: hər övrəti ki, ərə gedəndən bir il sonra uşağı olmasa o övrət 3 dəfə tabutun altından keçib 3 həmd 7 qülhüvəllah oxuyub öz çilləsin kəsib, o tabutu öpüb getsin tamam 9 aydan sonra o övrətin uşağı olar, bişəkk və şübhə bu şərtilən ki, o tabutun üstündə heç olmasa 3 gündə bir dəfə əldə ölmüş adam qəbristana gedə".

## BATUMDAN MƏKTUB

Molla əmi! Dünən Batum əyan və əşrafı yığışıb gəliblər mənim yanıma, başlayıblar səndən gilayə eləməyə. Məsələn, deyirlər ki, Molla əmi mağıl bundan qabaq hərdəm yadına salardı bizim xüsusumuzda gözəl-gözəl şerlər yazardı, amma indi bilmirəm Molla əmi bizdən niyə inciyib, ya bizdən nə xilafi-ədəb baş verib ki, heç bizim adımız illər uzunu jurnalda çəkilmir. Molla, bəyə güman eləyir ki, bizim şəhərimiz Bakıdan, Qubadan, Təbrizdən əskik şəhərdir və bizim Mollla Hacıbabalarımız, Hacı Mirzə Həsənlərimiz yoxdur!

Deyirsən bəs bizim şəhərdə məktəb açmaq istəyəndə və şəriətə deyənlərimiz yoxdur. Əlhəmdülillah Batum öz-özlüyündə gözəl yerdir, əhli də çox bərk müsəlmandır. Belə ki, hamımız əyanlı, əşrəfli, tacirli, kəsəbəli bu fani dünyaya könül verməmişik. Bəzi şəhərlər kimi məktəb açmaq uşaqlarımızı məktəbə göndərmək fikrinə düşməmişik. Başımızı salıb aşağı günün yarısını qəhvələrdə, o biri yarısını da hamamda başa veririk. Heç insafdır bizi lap yaddan çıxardasan. Bizim şəhərdə kifayət qədərincə məscid olduğu halda genə möhtərəm iranlı qardaşlarımız təzədən bir məscid salmaq fikrinə düşüblər. Əgərçi bəzi ağzıgöyçəklər istədilər həman məscidin yerində bir məktəb qayırsınlar, amma qoymadıq və qoymarıq!..

Molla, əmi doğrudan da kişilərin sözləri düzdür, gilayələr yerindədir. Hələ mətləbin dalısı çox uzundur və məktəbə yol verməyən möhtərəm cənabların adlarını inşallah gələcəkdə xidmətinizə ərz edəcəyəm. Hələlik xudahafiz, sizi istəyən

*Miskin tələbə*

## POÇTA QUTUSU

Genə "Dastançı"ya cavab: şerlərinin nazimi "Heyvərə"yə: Şerlərin çox gözəl və qiymətli olduğuna yana dərc məsləhət bilməyib, idarədə yadigar saxladıq.

*Müdir və baş mühərrir:*
*Cəlil Məmmədquluzadə, Əliqulu Nəcəfov*



## "ŞƏRQ" MƏTBƏƏSİ KÖÇDÜ

Tiflisdə Voronsov küçəsində Baronbekov karvansarasının qabağında təzə pasaja, nömrə 9.

Адресь: Тифлись, Воронцовская 9, типографія "Шяркь".

Исмаилу Гасань-заде

*Электроп. Грузинск.*
*Изд.Товарищества Больш. Ванкская ул. №12*




Müsəlman taciri     Yunan taciri     Erməni taciri     Firəng taciri